Menecment ixtisasının təlim nəticələri

-Tələbələr idarəetmənin əsas nəzəriyyələrini və prinsiplərini öyrənir, müxtəlif idarəetmə yanaşmalarını başa düşürlər.

-İdarəetmə proseslərinin təşkili, resursların səmərəli istifadə edilməsi və qərar qəbul etmə metodları haqqında dərindən bilik əldə edirlər.

-Tələbələr strateji idarəetmə proseslərini öyrənir, uzunmüddətli məqsəd və hədəflərin təyin edilməsi, planlaşdırma və həyata keçirilmə metodları haqqında biliklər əldə edirlər.

-Strateji qərarların necə qəbul edilməli olduğunu, bazar analizini və rəqabət strategiyalarını başa düşürlər.

-Tələbələr maliyyə hesablamaları, büdcə planlaşdırılması və maliyyə resurslarının idarə edilməsi sahələrində akademik biliklərə sahib olurlar.

-İnsan resursları strategiyalarını öyrənir, işə qəbul, əmək qanunvericiliyi, təlim və inkişaf, əmək münasibətləri haqqında geniş bilik əldə edirlər.

-İR sahəsində liderlik, motivasiya və komanda qurma metodlarını başa düşürlər.

-Marketinqin əsas prinsipləri, bazar araşdırması, reklam strategiyaları və brend idarəçiliyi haqqında akademik biliklərə sahib olurlar.

-Satış hədəflərini müəyyənləşdirmək və həyata keçirmək üçün müxtəlif metodları öyrənirlər.

-Təşkilatın strukturu, əməliyyatların təkmilləşdirilməsi, idarəetmə ierarxiyasını başa düşmək və idarəetmə metodlarını nəzəri əsaslarla öyrənirlər.

- Təşkilatların məqsədlərinə uyğun iş proseslərinin necə qurulması lazım olduğu haqqında biliklərə malik olurlar.